*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 2*
*Səhifə: 57-62*
*https://doi.org/10.59849/2663-4368.2024.2.57*
*ISSN 2663-4368*
*E-ISSN 2709-2699*

# İlyas Əfəndiyevin roman yaradıcılığı

**Dilarə Adilova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: adilova.60@bk.ru

**Annotasiya.** Məqalədə Xalq yazıçısı İlyas Əfəndiyevin ədəbiyyata gəlişi, nəsrimizdə yeri qeyd olunmaqla yanaşı, roman yaradıcılığı da geniş araşdırılmışdır. Məqalə çərçivəsində romanları tək-tək tədqiqata cəlb edilmiş, yaratdığı obrazlar, xüsusilə qadın qəhrəmanları müqayisəli incələnmişdir. İ.Əfəndiyevin tədqiqatçılarına müraciət olunmuşdur. Yazıçının toxunduğu mövzulara, qabartdığı problemlərə diqqət yetirilmiş, yaradıçılığından qırmızı xətt kimi keçən Qarabağ tematikası önə çıxarılmışdır. Nasirin üslubu, təhkiyəsi, dili də diqqətdən kənarda qalmamışdır. Yazıçının müasirliyi, 60 illik oxucu-müəllif əməkdaşlığı məsələsinə də toxunulmuşdur. Romançı İ.Əfəndiyev hərtərəfli tədqiq və təqdim edilmiş, onun Azərbaycan romanının inkişafında xidmətləri göstərilmişdir. Yazıçının söykəndiyi soy-kök, adət-ənənə, milli meyarlar, humanizm əsas xüsusiyyətlər kimi diqqətə çatdırılmışdır. Yazıçının xatirəsinin əbədiləşdirildiyi məqamlar da unudulmamışdır.
**Açar sözlər:** yazıçı, oxucu, roman, obraz, təhkiyə

**Məqalə tarixçəsi:** göndərilib – 11.10.2024; qəbul edilib – 22.10.2024

# Novel creation of Ilyas Efendiyev

**Dilara Adilova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: adilova.60@bk.ru

**Abstract.** In the article, Ilyas Efendiyev's arrival in literature and his place in our prose are widely explored. Within the framework of the article, his novels were studied one by one and the characters he created, especially the female heroes, were compared. I. Efendiyev's researchers were addressed and references to the writer Elchin were made. Attention has been paid to the topics touched upon by the writer, the problems raised by him and the theme of Karabakh, which runs through his creativity as a red line, has been highlighted. Writer's style and language have not gone unnoticed. The writer's modernity, 60 years of close reader-author cooperation were also touched upon. The novelist I. Efendiyev has been comprehensively studied and presented and his services in the development of the Azerbaijan novel have been shown. The origin, tradition, national criteria, humanism, which the writer is based on, are highlighted as the main features. The moments that immortalized the memory of the writer have not been forgotten.
**Keywords:** writer, reader, novel, image, tehkiye (narration)

**Article history:** received – 11.10.2024; accepted − 22.10.2024

## Giriş / *Introduction*

İlyas Əfəndiyev dedikdə gözlərimiz önündə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli klassiki, nəsrimizin və dramaturgiyamızın parlaq simalarından biri canlanır.

Zamanla məşhur yazıçılar bu sənətə necə gəldiklərini ictimaiyyətlə bölüşmüş, bəziləri hətta "mətbəx"lərinin sirrini də açıb tökmüşdülər. Məsələn, Amerika yazıçısı S.Kinq bu barədə belə deyirdi: "Yazıçı olmaq istəyirsənsə, çox oxumalısan. 123 kitab oxuyandan sonra dünyaya deməyə sözün olacaq". Q.Flober isə "5-6 kitabı yaxşı bilməklə" kifayətlənirdi. İ.Hüseynov üçün isə "yazıçılıq göylərdən gələn əmr" idi... İ.Əfəndiyev "mən necə yazıçı oldum?" sualına belə aydınlıq gətirirdi: "Qaryagində coğrafiya müəllimi işlədiyim vaxtlar yadıma düşür. Uzun qış gecəsi idi, çöldə qar-çovğun vardı. Adətim üzrə mütaliə edirdim. Birdən elə bil ilahidən məndə bir fikir yarandı ki, buradakı həyatımı, ürəyimi əzən, sıxan düşüncələrimi şəhərdəki bir dostuma məktub formasında yazım. Bu güclü hissin qarşısında davam gətirə bilmədim. Özüm də bilmirəm nə iş idi, bir də gördüm ki, hekayə yazıram. Növbəti gün də, ondan sonra da belə oldu..." [2, s.172]

İ.Əfəndiyev nəsrimizin klassiki adını hələ sağlığında haqq etmişdir. 60 ildən artıq oxucuların sevimlisi olub ədəbi tənqidin diqqətində qalmaq hər qələm sahibinə nəsib olmur. Zəngin yaradıcılığı, özünəməxsus istedadı, əqidəsinə sədaqəti və xəlqiliyi onu hələ sağlığında ədəbiyyat olimpində bərqərar etmişdir. Haqqında namizədlik, doktorluq dissertasiyaları, monoqrafiyalar yazılmış, adı İçərişəhərdə və digər bölgələrimizdə küçələrə verilmiş, nəsr və dramaturgiya üzrə "İlyas Əfəndiyev mükafatı", 1997-ci ildə buraxılmış poçt markası ilə əbədiləşdirilmişdir.

## Əsas hissə / *Main Part*

İ.Əfəndiyev nəsrinin əsas qolunu onun "janrı gözəl bildiyi" romanları təşkil edir. "İ.Əfəndiyev milli roman yaradıcılığına çox böyük töhfəsini vermiş yazıçıdır" [6]. "Söyüdlü arx" (1958), "Körpüsalanlar" (1960), "Dağlar arxasında üç dost" (1963), "Sarıköynəklə Valehin nağılı" (1976-1978), "Geriyə baxma, qoca" (1980) romanları mürəkkəbi quruyar-qurumaz həm ədəbi cameyədə, eləcə də geniş oxucular arasında populyarlıq qazanmışdı. Onun romanlarınının mövzusunu nə konkret kəndə aid etmək olur, nə şəhərə. Yazıçının qəhrəmanları birmənalı şəkildə nə kəndlidir, nə şəhərli. Kəndlə şəhər arasında "var-gəl" edirlər. Ədibin həyatının əsas və böyük hissəsi şəhərdə keçsə də, burada yaşayıb yaratsa da, içərisindən çıxdığı kənd daim onun içində qalırdı. İ.Əfəndiyevin oxucu auditoriyası geniş idi. Onun üçün "oxucu kütləsi" deyilən aşağılayıcı bir anlayış yox idi. Oxucuya ehtiram onun yazıçı məsləki idi. Bu səbəbdən də əsərlərini özü mütaliə edən yazıçı olmaq istəyirdi. Xalq yazıçısı Elçin İ.Əfəndiyevin oxucularına münasibəti barədə yazırdı: "Tamam səmimi deyirəm və istəyirəm ki, oxucular buna inansınlar... İ.Əfəndiyevin özü haqda yazılanları axıracan oxumağa hövsələsi çatmasa da, oxuculardan gələn qalaq-qalaq məktublara həssas münasibəti ilə seçilirdi" [3, s.16]. V.Nabokov "Yaxşı oxucular və yaxşı yazıçılar" essesində yazırdı: "Usta sənətçi insan ayağı dəyməmiş yamaca dırmaşır, təpədə, küləkli zirvədə bir nəfərlə qarşılaşır – sizcə kiminlə? Təngnəfəs olmuş xoşbəxt oxucu ilə. Onlar bir-birinə sarılırlar" [7].

İ.Əfəndiyevdən oxuduğum ilk əsər "Söyüdlü arx" romanıdır. Bu, yazıçının ilk romanı olub, nəsrimizdə "lirik-psixoloji təmayülün başlanğıcı" sayılır. Bu romanı tam zamanında – yetkinlik yaşına çatanda oxumuşdum. Mən də romanın qəhrəmanı Nuriyyə ilə birgə buraxılış imtahanlarına hazırlaşırdım. Bəlkə də buna görə və xarakterlərimizdəki başqa oxşarlıqlara görə əsər mənə belə təsir etmişdi. Onun hisslərinin təsviri necə də mənə tanış idi. Bəlkə də bu, aldadıcı bir hiss idi... Amma Universitetə daxil olandan sonra ilk işim "İlyas Əfəndiyevi" əvvəldən axıra oxumaq oldu. İ.Əfəndiyev bənzərsiz romançı idi. Romanlarının əsas tematikası isə əbədi-əzəli mövzu olan məhəbbət idi. "Söyüdlü arx" hisslər, duyğular romanıdır. Çünki İ.Əfəndiyev özü "hisslər, duyğular bolluğu ilə yazıb-yaradan" yazıçı idi. Nasirin əsərlərinə xas emosional fon başlanğıcını elə bu romandan götürür.

"Dağlar arxasında üç dost" İ.Əfəndiyevin romanlarından biridir. "Söyüdlü arx"da olduğu kimi burada da müasir kənd modeli, onun tərəqqisi problem kimi götürülür. Kitabın mütaliəsi zamanı onun klişe sovet romanlarından biri olmadığı qənaətinə gəlinir. Hətta onun təsvir etdiyi sovet beynəlmiləlçiliyi də yazıçı peşəkar-

lığı və səmimiyyətindən dolayı qıcıq doğurmur, bu gün də zəmanəsinin güzgüsü kimi inandırıcı görünür ("Körpüsalanlar"da da belədir). Əsərin adında 3 dost vurğulansa da, bu, bir fon olaraq qalır. Bu, uca, sərt və əzəmətli dağlar arasında başlayan bir məhəbbət romanıdır.

Səlimə bir az Nuriyyəyə bənzəyir. O da Nuriyyə kimi Almazın davamçılarındandır. Zəhmətkeşdir, xalqa, millətə canla-başla xidmət onun həyat kredosudur. "Dünyada yalnız bir fərəh var: yaratmaq, həmişə yaratmaq"... Səlimə də bu həvəslə yaşayır.

Yazıçı bizim bənzətməmizi gözləməyib özü Səlimə ilə Nuriyyəni rəfiqə kimi göstərir. Əlbəttə, Səlimənin rəfiqəsi Nuriyyə olmamış kim olacaqdı ki? O özü bu barədə deyir: "Bakıda olan yoldaşım Nuriyyəyə məktub yazıb xahiş edəcəyəm ki, mənə təzə vallar alıb göndərsin" [4, s.88].

Bu qızlar nə edirlərsə, ürəkdən, sevə-sevə edirlər. Ən xırda şeylərdən heyrətlənməyi, ən sadə şeylərdən xoşbəxt olmağı bacarırlar. Onları yazıçı belə yaratmışdı.

Lakin İ.Əfəndiyevin bütün obrazları Nuriyyə, Səlimə qəlbində, ruhunda, sentimentallığında deyil. Necə ki, bağçada qızılgül də yetişir, qara tikan da. Bu "bağçanın" Gülnisəsi də var... Elə ilk gündən Səliməyə şübhə ilə yanaşır, oğlunu ona qısqanır, iki gəncin arasındakı emosional münasibəti bir qadın, ana intuisiyası ilə onların özündən də qabaq hiss edir və refleksləri gecikmir.

"Körpüsalanlar" İ.Əfəndiyevin ən çox müzakirə olunan əsəri olub fərqli qəhrəmanı ilə inqilab etdi. Əsərdə yazıçının şəxsiyyət azadlığı arzusu duyulur, insanın öz davranışlarında müstəqil olmaq hüququ önə çəkilir. Hətta romana bir ara Mərkəzi Komitə qadağa da qoymuşdu. Bu, həyəcanı, problemləri, travmaları ilə dolu bir ailə dramıdır. Romanın episentrində qədim-qayım məhəbbət üçbucağı dayanır. Cəmiyyətdəki, mentalitetdəki bütün stereotipləri dağıdan Səriyyə artıq formalaşmış, ütülü həyatını, rəis ərini, onun perspektivli gələcəyini atıb buldozerçi Qəribcanla davam edir. Doğrudur, ola bilsin ki, buldozerçi ona Adilin mənsub olduğu kübar həyatı verə bilməsin (əslində, Səriyyə də elə bundan bezib), lakin yeraltı kökləri, ruh yaxınlığı, daxili azadlığı onu Qəribcana doğru çəkir. Və oxucu onun nə vaxtsa peşman olacağını düşünmür... Əgər meşşanlığını, karyeristliyini, təkəbbürünü bir tərəfə qoysaq (həqiqətdə, bunlar da az deyil), heç Adil də pis adam deyil; işini biləndir, həyat yoldaşını sevir, məsuliyyətli və səbirlidir (bəlkə də karyeristliyidi səbrini basan). Səriyyə isə həyat yoldaşına münasibətdə soyuq, dedi-qodulara qaya kimi möhkəmdir. Çərçivəyə, ölçüyə sığmayan, özbaşına bir qadın təsiri bağışlasa da, saxtakar deyil. Hissləri onu uzağa aparsa da (emosional xəyanət də deyə bilərik) ərini aldatmır, nə qədər parodoks səslənsə də, bu, yüksək əxlaqın göstəricisidir. Onun bir alibisi var; Qəribə qarşı gecikmiş məhəbbəti...

İnsana xas heç bir xüsusiyyət bu "üçbucağa" yad deyil. Hər kəs özünün olanını qoruyur, sevdiyi uğrunda mücadilə edir. Günümüz üçün bu mövzu hər gün eşitdiyimiz hadisələrdən, ailə dramlarından biridir. Qadın emansipasiyası az qala təbliğ edilir, gender bərabərliyi rəğbətləndirilir, hər küncdə-bucaqda feminizmin təşviqi gedir (dərindən düşünəndə emansipasiya qadınları yox, kişiləri qoruyur). Tərəqqinin tənəzzülü... Cəmiyyətdə qadınların rolu, mövqeyi, onlara münasibət baş verən qlobal hadisələrlə əlaqədar sürətlə dəyişir. Amma uzaq 60-cılarda belə cəsarət sahibləri az qala daşqalaq olunurdular. Onların arxasında isə İ.Əfəndiyev kimi yazıçı dayanır, "tutduqları yoldan geri dönməmələrini təvəqqe edirdi". Çünki onlara inanır, xoşbəxt olmaqlarını istəyirdi. Çünki bədbəxt olmaq daha asandır, nəinki xoşbəxt olmaq... İnsan nəyə görə uzadıb-uzadıb xoşbəxtliyinin vaxtından kəsməlidir? Yazıçı milli mentalitetimizdəki bütü qırmağa qalxmışdı...

"Geriyə baxma, qoca"dakı Yaqut da yazıçının sevimli "qızlarından" idi. Yaqutda da emansipasiyanın əlamətləri kifayət qədərdir. İ.Əfəndiyev sevimli qızlarını əzizləməyi, ərköyün etməyi sevirdi. Qarabağın say-seçmə gözəllərindən olan Yaqut ictimai mənşəyinə, həyat tərzinə görə İ.Əfəndiyevin digər sevimli obrazı Şahnaza bənzəyirdi. Ümumiyyətlə, nəsil-nəcabət, soy-kök anlayışı İ.Əfəndiyevin əsərlərində hələ sovet vaxtından qabardılırdı.

İki il ara ilə yazılmış "Sarıköynəklə..." "Geriyə baxma, qoca" romanları nağıl-rəvayətvari üslubu ilə bir-birinə bənzəyir və əvvəlki üçlükdən mövzusu, dəst-xəttiylə fərqlənir. "Valehlə Sarıköynəyin toya hazırlaşmaları və başqa əhvalatlar" və "Cavan Bayramla gözəl Fatmanın

əhvalatı" iki ayrı romanın fəsilləridir. Bu da zaman keçdikcə İ.Əfəndiyevin yaradıcı ampluasının dəyişməsindən xəbər verərək yaddaşda qabaran keçmişin yaradıcılığa köçməsinə şərait yaradır. Dünya ədəbiyyatında belə nağıl-romanlara kifayət qədər rast gəlinir. Nağılın təklikdə həqiqətə bir iddiası olmasa da, romanla birləşəndə həm macəralı olur, həm də imkanları genişlənir. Eyni zamanda dili sadələşir ki, bu da nağılın tələblərindəndir. Necə deyərlər, "möhtəşəm romanlar elə möhtəşəm nağıllardır".

"Sarıköynəklə Valehin nağılı" əsəri İ.Əfəndiyevin əvvəlki romanlarından deyildir. Əgər "Söyüdlü arx", "Körpüsalanlar", "Dağlar arxasında üç dost" 60-cıların əvvəllərini əhatə edirdisə, "Sarıköynək..." sosial, məişət və ictimai problemləri ilə sırf 80-cilərə aiddir. İ.Əfəndiyev cəmiyyətdəki və insan mənəviyyatındakı qüsur və eybəcərliklərlə öz əsərləri vasitəsilə mübarizə aparırdı. O, insan haqlarının pozulması və taptanılmasına, hər cür mənəviyyatsızlığa, əxlaq pozuntusuna qarşı barışmaz mövqedə idi. Zəhmət, əmək, ailə, dostluq onun üçün müqəddəs nəsnələr olub əsərlərinin də baş mövzusu idi. "Sarıköynəklə Valeh..." yazıçının digər romanlarından fərqlənir... Burada gördüyümüz xoşbəxt cütlüklə ədibin başqa romanlarında qarşılaşmırıq. Bu, dövrünün məhəbbət dastanıdır. Romanda uşaqlıqdan bir-birini sevən iki gəncin çətin taleyi və saf məhəbbəti fonunda dövrün çatışmazlıqları, haqsızlıqları əks olunur. "Romanın sərlövhəsinə çıxarılmış "nağıl" sözü təsadüfi xarakter daşımır". Bu, yazıçıya yeri gəldikcə hadisələri "nağıl"laşdırıb, qəhrəmanları düşdükləri mürəkkəb vəziyyətlərdən çıxarmağa imkan verir. Nağıl qəhrəmanları həmişə simvol kimi qəbul edilirlər; işıq-qaranlıq, xeyir-şər... Elə romanın "happy end"lə bitməsi əsl nağıl sonluğudur. "Romanda sərt realizmlə sosializm romantikası birləşib nağıla dönmüşdür" [2, s.115].

1960-80-ci illər İ.Əfəndiyevin yaradıcılığının məhsuldar, müəllif-oxucu əməkdaşlığının intibah dövrü idi. Ədibin ailəsi Sovet hakimiyyətindən nəyi var çəkmiş – ciddi təqiblərə məruz qalmış, müflis edilmiş, əzab-əziyyətə düçar olmuş, ailəsindən həbs edilib güllələnənlər də olmuşdu. Bütün bunları o uşaqlıq xatirələrindən, böyüklərin söhbətlərindən keçirərək 1980-ci ilə gətirmiş, "Geriyə baxma, qoca" romanında təsvir etmişdi. Əsər ona görə belə səmimi alınmışdır ki, balaca Muradın prototipi yazıçının özüdür. Ədibin özünün mənsub olduğu "Əfəndi uşağı"nın adı keçir, İstanbulda ruhani təhsili almış Əfəndi babadan danışılır. İ.Əfəndiyev Şuşa gimnaziyasını bitirib dövlət idarələrində məmur, "Müsavat"ın vaxtında Şuşada qəza rəisi vəzifəsində işləmiş babası Bayram bəyi öz adı ilə romanına gətirmiş, təbii cizgilərlə təsvir edib obraz səviyyəsinə qaldırmışdı. Yazıçı bundan əvvəl də, hələ 1971-ci ildə "Mahnı dağlarda qaldı" tamaşasında Böyük bəyin adı ilə Bayram bəyin obrazını yaratmışdı. Hətta romanın təhkiyəçisi balaca Murad da yazıçının özü kimi tacir oğlu idi. Qaçaq Bahaduru da "Geriyə baxma, qoca"ya "Mahnı dağlarda qaldı"dan gətirmişdi. 1982-ci ildə mən bu romandan diplom işi müdafiə etmişdim. Bu yazı ilə əlaqədar diplom işimi yenidən açıb oxudum. Elmi rəhbərim filologiya elmləri doktoru, professor Tofiq Hüseynov işimə verdiyi rəydə yazırdı: "İ.Əfəndiyevin "Geriyə baxma, qoca" adlı yeni romanı ədəbi ictimaiyyət və oxucular tərəfindən maraqla qarşılanmışdır. Bu əsər haqqında dövri mətbuatda çıxan məqalələrdə bir sıra maraqlı fikirlər və müsbət rəy söylənilmişdir. Lakin roman bütövlükdə ilk dəfə bu diplom işində xüsusi tədqiqat obyekti kimi götürülmüş, geniş təhlil edilmişdir".

Avtobioqrafiyanın ədəbi janr kimi kökləri antik dövrə gedib çıxır. Qrafik əsər müəllifin öz şəxsiyyəti ilə bağlı olub daxili aləmini əks etdirir. Belə əsərlər özümüzdə və dünya ədəbiyyatında bəs qədərdir. Bu qəbildən olan kitablara həyatı dəyişən kitablar da deyilir. Lakin "Geriyə baxma, qoca" bioqrafiyanın içində olduğu sırf bədii əsərdir. Qocanın rəvayətləri nağıl ruhludur, "Möhnət qocanın nağılları" adı altında təqdim olunur. Yazıçının təhkiyəçiliyi "etibar etdiyi" balaca Muradın söhbətləri isə müxtəlif səpkili rəvayətləri əhatə edib onun dünyabaxışı zəminində izlənilir. Uyğun bir müqayisə düşünürəm ki, yerinə düşər... Orxan Pamukun bu janrda yazdığı "İstanbul: xatirələr və şəhər" romanı o qədər məşhurdur ki, şərhə belə ehtiyac olmadığını düşünür, sadəcə, xatırlatma ilə kifayətlənirəm: "Türk romançısı doğulduğu şəhərin melanxolik ruhunun izlərini axtararkən..." Nobel mükafatını qazanıb.

Xalq yazıçısı Elçin "İ.Əfəndiyevin uşaqlıq illərinə, soyuna-kökünə, iti hafizəsinin ötüb-keçmiş günlərlə bağlı ömrünün son günlərinədək dəqiq təfərrüatlarıyla qoruyub saxladığı xatirələrə" nə qədər bağlı olduğunu qeyd edirdisə, yaddaşı sona qədər diri olan Murad da "mən indi də keçmişsiz yaşaya bilmirdim" deyirdi: "Bu keçmiş daim mənimlə idi, zehnim hal-hazırın ən mürəkkəb hadisələrilə çox aydın tərzdə uğraşanda da mənimlə idi. Bəzən ağlım çaşırdı, mənə elə gəlirdi ki, həyat ancaq bu xatirələrin intəhasız davamından ibarətdir" [5, s.47]. İ.Əfəndiyev müasir ruhlu yazıçı idi, keçmişə yanaşması da yenilikçi idi. "Keçmiş mənim üçün bəyilə-xanıyla, fəhləsiylə, qaçaq-quldu-ruyla keçmişdir", – deyirdi.

İ.Əfəndiyev təhkiyə ustasıdır, qəhrəmanlarını öz dili ilə danışdırır, "lirik etiraf üslubunu sevirdi". Birinci şəxsin dilindən təhkiyə aparmaq dünya ədəbiyyatında geniş yayılmışdır. Bu daha çox qadın obrazlarına şamil olunur. Qəhrəman oxucuya ürəyini boşaldır, dərdini danışır, sirrini deyir, hisslərini bölüşür, danışdıqca da, özünün xarakteri açılır. Necə deyərlər, "danış səni görüm". Şarlotta Brontenin "Cen Eyr" romanı təhkiyənin gözəl nümunələrindəndir. Rəşad Nuri də romanlarında qəhrəmanlarını öz dilindən təsvir etməyə üstünlük verirdi. Bu da bir hekayə formasıdır, özü də maraqlı. Qəhrəman ya ikinci, üçüncü dərəcəli obraz auditoriyaya özü müraciət edir, əhvalatları nəql edir, konflikti özü açır, ya da oxucunu hekayəsinə özü bağlayır. Çox zaman müəllif də iştirakçılardan birinə çevrilir, müdaxilə edir, münasibət bildirir.

İ.Əfəndiyevin ən avtobioqrafik əsəri "Geriyə baxma, qoca" sayılsa da, bioqrafiyasını əhatə edən məqam və hadisələri "bütün əsərlərində axtarmaq lazımdır". Elə milli kimliyini, şəxsiyyətini də. "Əsl sənət əsərlərində müəllifin empirik bioqrafiyası yox, daxili "mən"i, mənəvi aləmi, ilahi ucalığı – Ruhu açılır; portreti yox, şəxsiyyəti görünür" [3, s.398]. Əsərlərinin baş qəhrəmanı da elə yazıçı özüdür. "Əlbəttə, İlyas Əfəndiyevin heç bir əsərində ayrıca bir İlyas Əfəndiyev yoxdur. Lakin İlyas Əfəndiyevdən bir duz, bir iz onun hər əsərində, hər obrazında var" [3, s.398].

"Qarabağ həm də ədəbiyyatımız" olub, İ.Əfəndiyevin də yaradıcılığında mühüm yer tutur. Soy-kök, "genlərin kədəri", vətəndaşlıq mövqeyi, yazıçı ağrı-acısı müxtəlif təzahürlərdə özünü ifadə edirdi. Buna görə də tənqidçi Y.Qarayev İ.Əfəndiyevin yaradıcılığını səkkizinci "Qarabağnamə" adlandırırdı. "Hökmdar və qızı" Qarabağın salnaməsi hesab olunur. Qarabağın tarixi, orada "oynanılan" hadisələr onun əsərlərində geniş əksini tapmışdı. "Geriyə baxma, qoca"da, daha əvvəl, "Mahnı dağlarda qaldı"da Qarabağ təbiətini, onun toponimlərini təsvir etmişdi. Xüsusən Topxana meşəsini... "Dağlar arxasında üç dost"da da təsvir edilən hadisələr qalın Qarabağ elində baş verir. Bu təbiət, mühit, insanlar ona doğma olduğu üçün hadisələri zamanla oraya aparır.

## Nəticə / *Conclusion*

Sovet dövrü ədəbiyyatının sütunlarından biri olan İ.Əfəndiyev ömrünün sonuna qədər yazıb-yaratmış, ədəbiyyatımıza xidmət etmişdir. Yazıçı 1939-cu ildə "Kənddən məktublar" kitabı ilə ədəbiyyata necə uğurlu debüt etmişdisə, bu uğuru bütün yaradıcılığı boyu da şərəflə daşımış, onu formasiyaların sınağından üzüağ çıxarmışdı. Bu da onun böyük təcrübəsindən, professionallığından, öz şəxsiyyətinə və qələminə sədaqətindən irəli gəlmişdir. "Futuroloqlar gələcək haqqında proqnozlar verirlər. Bəzən yanlış, bəzən reallığa yaxın. Gələcək üçün ən doğru mənbə milli bədii yaddaşdır. XX əsrin klassiki İlyas Əfəndiyev XXl əsrin müxtəlif düşüncəli və zövqlü oxucusu ilə həmsöhbətdir. İ.Əfəndiyev sənəti onun yaşamaq, var olmaq qüdrətidir" [1].

## Ədəbiyyat / *References*


1. Alışanlı, Ş. Sənətkarın yaşamaq haqqı. Azərbaycan Milli Kitabxanası. http//anl.az
2. Əfəndiyev, İ. Geriyə baxmağa dəyər. Təhsil, 2014.
3. Əfəndiyev, İ. Seçilmiş əsərləri, I cild. ÇİNAR-ÇAP, 2002.

4. Əfəndiyev, İ. Seçilmiş əsərləri, V cild. ÇİNAR-ÇAP, 2002.
5. Əfəndiyev, İ. Seçilmiş əsərləri, Vl cild. ÇİNAR-ÇAP, 2002.
6. Əlişanoğlu, T. İlyas Əfəndiyevin "sosial utopiya" romanları. "525-ci qəzet", 02.06.2014.
7. senet.az https://senet.az 12.09.2017

## Романное творчество Ильяса Эфендиева

**Дилара Адилова**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: adilova.60@bk.ru

**Резюме.** В статье широко исследуются приход Ильяса Эфендиева в литературу и его место в нашей прозе. В рамках статьи поочередно изучались его романы, сравнивались созданные им персонажи, особенно женщины-героини. В статье обращались к исследователям И.Эфендиева, приводились ссылки на писателя Эльчина. Уделено внимание темам, затронутым писателем, поднятым им проблемам, подчеркнута тема Карабаха, которая красной линией проходит через его творчество. Стиль, манера и язык писателя не остались незамеченными. Затронута также современность писателя, 60 лет тесного сотрудничества читателя и автора. Всесторонне изучен и представлен романист И.Эфендиев, показаны его заслуги в развитии азербайджанского романа. В качестве основных черт выделены происхождение, традиция, национальные критерии, гуманизм, на которых основывается писатель. Моменты, увековечившие память писателя, также не остались незамеченными.

**Ключевые слова:** писатель, читатель, роман, образ, стиль